# Hacı Həsənov - 70

## Böyük alim, ideal insan, görkəmli şəxsiyyət



Çox hörmətli və dəyərli qardaşımız Hacı Həsənov haqqında söz demək həm asandır, həm də çətin və məsuliyyətlidir. Çətindir ona görə ki, nəciblik, alicənablıq, dəyanət rəmzi olan Hacı müəllimin yüksək məziyyətlərinin dar çərçivədə bütövlükdə təqdim etmək mümkün deyildir. Asandır, ona görə ki, onun şərəfli həyatının, humanist-mükəmməl ideyalarının, möhkəm dostluğunun, güclü məntiqinin, nümunəvi vətənpərvərliyinin - bir sözlə bu yetmiş illik möhtəşəm həyatının hansı dövrünə və sahəsinə müraciət olunarsa yalnız xeyirxahlıq, müqəddəslik, sadəlik, mərdlik və müdrikliklə rastlaşırsan.

Mənalı və şərəfli həyatı hər bir azərbaycanlıya bariz bir nümunə olan Hacı Həsənov 1952-ci il oktyabrın 17-də Beyləqan elimizin Şəfəq qəsəbəsində anadan olmuşdur. O, 1970-ci ildə ADPU-nin Tarix fakültəsinə qəbul olunmuş və 1974-cü ildə həmin universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Qayğıkeş və müdrik ziyalı Hacı Həsənov 1981-1985-ci illərdə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aspiranturasında təhsil almışdır. Hələ gənc yaşlarında geniş və dərin erudisiyası ilə seçilmiş, mədəniyyət, iqtisadiyyat, siyasət tarixinə güclü marağı ilə fərqlənmişdir. Elə bütün bu əzmkarlığın, daxili zənginliyin nəticəsidir ki, o, 1987-ci ildə “Azərbaycanın dövlət kəndi XIX əsrin sonu - XX əsrin əvvəllərində” mövzusunda tarix üzrə fəlsəfə doktoru dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Görkəmli alimin elmi mühiti onun kamil bir şəxsiyyət kimi formalaşmağında mühüm rol oynamışdır. Zəhmətkeş alim Hacı Həsənov elm naminə çəkdiyi əziyyətdən heç vaxt usanmır, axtarışlarını daim inamla davam etdirir. Müdrik ziyalı Hacı müəllimin “Azərbaycanın kənd icması XIX-XX əsrin əvvəllərində” mövzusunda doktorluq dissertasiyası Azərbaycan tarixində tamamilə yeni mövzu olmaqla Vətən tarixinin az öyrənilmiş, qaranlıq qalmış səhifələrindən birinin araşdırılmasına həsr edilmişdir.

Azərbaycan tarixinin XIX-XX əsrlər dövrü vətənimizin tarixində olduqca aktual, çox mühüm elmi və strateji bir dövrdür. Qeyd edək ki, məhz tariximizin bu dövrünün hərtərəfli araşdırılması ilə məşğul olan “Azərbaycanın yeni tarixi” şöbəsi A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 1947-ci ildə yaradılmışdır. Şöbəyə müxtəlif dövrlərdə akademik Ə.S.Sumbatzadə, AMEA-nın müxbir üzvü Ə.N.Quliyev, tarix elmləri doktoru İ.M.Həsənov, tarix elmləri doktoru İ.V.Striqunov və AMEA-nın müxbir üzvü M.Ə.İsmayılov rəhbərlik etmişdilər. Bu şöbə, ölkədə tarix elminin inkişafında mühüm rol oynamışdır. 2001-ci ildən şöbəyə ədalətli və qayğıkeş ziyalı, tarix üzrə fəlsəfə doktoru H.N.Həsənov rəhbərlik edir. Şöbə müdiri olaraq bütün elmi və təşkilati işləri layiqincə yerinə yetirən, özünün böyüklüyünü əməli işi ilə təsdiqləyən fədakar alim bu gün də həmin şöbəyə başçılıq edir.

Hacı Həsənovun rəhbərlik etdiyi tükənməz və güclü potensiala malik olan “Azərbaycanın yeni tarixi” şöbəsi başlıca olaraq XVIII-XX əsrin əvvəllərində (1736-1917-ci illər) Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəniyyət tarixi üzrə tədqiqatlar aparılması üzrə ixtisaslaşmışdır. Şöbədə tədqiq olunan problemlər arasında Azərbaycan xanlıqlarının tarixi, Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı və bunun nəticələri, çarizmin köçürmə siyasəti, Azərbaycanın ərazi bütövlüyünə qarşı qəsdlər (Ə.S.Sumbatzadə, M.Ə.İsmayılov, T.T.Vəliyev, H.N.Həsənov), kənd təsərrüfatı (Ə.S.Sumbatzadə, M.Ə.İsmayılov, İ.M.Həsənov, Ə.A.Umayev, H.N.Həsənov), sənaye (Ə.S.Sumbatzadə, T.T.Vəliyev, Z.A.Qafarova), ticarət və sənətkarlıq tarixi, şəhərlər tarixi (M.Ə.İsmayılov, Ə.A.Umayev, F.N.Məmmədov, N.R.Məmmədov, İ.Q.İbrahimi, F.Ə.-Tağıyev, G.N.İsmayılov), XIX əsrin sonu - XX əsrin əvvəllərində baş vermiş ictimai-siyasi proseslər (D.B.Seyidzadə, S.M.Mustafayeva), o cümlədən milli şüurun inkişafı, ictimai-siyasi təşkilatların formalaşması və onların fəaliyyəti (İ.S.Bağırova), Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımları, ölkənin milli-mədəni həyatı (d.s.Hüseynova) və başqa məsələlər əsas yer tutur. Kamil şəxsiyyət Hacı Həsənovun rəhbərlik etdiyi şöbənin elmi uğurları sırasında 3 cildlik “azərbaycan tarixi”nin II (bakı, 1963), 7 cildlik “Azərbaycan tarixi”nin IV (Bakı, 2000) və V (Bakı, 2001) cildləri mühüm yer tutur. Göstərilən fundamental araşdırmalarla yanaşı şöbə əməkdaşları XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanın “guya geridə qalmış feodal-patriarxal ölkəsi” olması haqqında əsassız “konsepsiyanı” ifşa edərək Şimali Azərbaycanda kapitalizmin genezisi və inkişafı üzrə elmi məktəb yaratmış və onu inkişaf etdirmişlər. Qeyd edək ki, hacı Həsənov təkcə öz dövrünü deyil Azərbaycan tarixinin bütün dövrlərini mükəmməl bilməklə dəvət olunduğu dissertasiya, kitab və məqalələrin müzakirələrində yüksək səviyyəli analitik çıxışları, dəyərli məsləhətləri ilə “canlı ensiklopediya”dır desək yanılmarıq.

Həyatı nəsillərə örnək olan Hacı Həsənov həm də ali və orta ixtisas məktəbləri üçün bir sıra yeni dərsliklərin hazırlanmasında yaxından iştirak etmiş, öz dəyərli məsləhətləri ilə tarix elmimizi zənginləşdirmişdir. Hacı Həsənova Respublikamızın elm və təhsil sistemi ilə bağlı ən yüksək qurumlarda obyektivliyinə, düzgünlüyünə, dərin zəkasına görə böyük etimad göstərilmiş, uzun müddət AMEA Tarix İnstitutunun Elmi Şurasında, Elmi Seminarında həmişə dəyərli məsləhətləri ilə diqqəti cəlb etmişdir.

H.N.Həsənov yeddicildlik “Azərbaycan tarixi”nin IV və V cildlərinin məsul redaktorunun müavini və bir sıra fəsillərinin müəllifidir. O, həmçinin bir dərs vəsaiti (10-cu siniflər üçün “Yeni tarix”) və ABŞ-ın Azərbaycan Respublikasında səfirliyinin dəstəyi ilə həyata keçirilmiş layihə çərçivəsində hazırlanmış “Demokratiya nədir?” adlı kitabın, dünyanın neçə-neçə ölkəsində çap olunmuş “İrəvan xanlığı” əsərinin həmmüəlliflərindəndir. Onun ümumi sayı 130-dan çox olan əsərləri dünyanın 10-dək dilində ABŞ, Almaniya, İspaniya, İtaliya və b. ölkələrində çap olunmuşdur.

Dövlətimiz görkəmli alimimiz Hacı Həsənovun əməyini yüksək qiymətləndirmiş və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 25 may tarixli 2238 nömrəli sərəncamı ilə Qarabağın, Naxçıvanın və İrəvan xanlığının tarixinə dair silsilə əsərlərə görə Respublika Dövlət mükafatına layiq görülmüşdür.

Yeri gəlmişkən onu da qeyd edək ki, insanın həyat və fəaliyyətində daşıdığı adın hikməti, mənası az rol oynamır. “hacı” adı “Müqəddəs”, “Dəyərli” addır və bu proses hörmətli qardaşımızın xeyirxah əməllərində reallaşmışdır.

Vətənin bütövlüyü uğurunda mübarizədə silah götürməyə qədər hər şeyə hazır olmuş bu tarixçi Nyu-York, İstanbul, Ankara, Moskva, Tehran, Sank-Peterburq və b. yerlərdə keçirilmiş mötəbər beynəlxalq elmi konfranslarda Azərbaycan həqiqətlərini, elmi nailiyyətlərini həmişə uğurla, cəsarətlə qorumuş və qorumaqdadır.

Vətənpərvər alimin elmi yaradıcılığında Qarabağ mövzusu xüsusi önəm kəsb etmişdir. Onun “Şuşanın işğalı tarixindən”, “Qarabağda heç erməni yoxmuş”, “Kürəkçay müqaviləsi tarixindən” və digər əsərlərində Qarabağın ictimai-iqtisadi və siyasi həyatını əks etdirməklə tariximizin qaranlıq səhifələrini işıqlandırılmışdır.

Hacı Həsənov zəngin elmi fəaliyyəti ilə yanaşı, həm də çox böyük pedaqoji təcrübəyə də malikdir. Tədris proqramlarına yeni fənlər və yeni ideologiya gəldiyi vaxtda Hacı Həsənov müxtəlif ali təhsil müəssisələrində bacarıqlı Pedaqoq kimi fəaliyyət göstərmiş, zəngin elmi fəaliyyəti, çoxillik pedaqoji təcrübəsi, ensiklopedik biliyi, eyni zamanda öz üzərində daim işləmək qabiliyyətinə malik alim təhsilimizin köməyinə gəlmiş və dərin məzmunlu mühazirələr oxumuşdur. O, bu gün də səriştəli Pedaqoq olaraq fəaliyyətini davam etdirir və xalqımızın maariflənməsində mühüm rol oynayır. Hörmətli Hacı Həsənovun cəmiyyət, elm və dövlət qarşısında, bir alim və vətəndaş olaraq üzərinə düşən öhdəliyi layiqincə yerinə yetirir və elmi fəaliyyəti hər bir alimə bir örnəkdir.

Çox hörmətli Hacı Həsənovun xalqımıza göstərdiyi misilsiz xidmətləri haqqında çox danışmaq olar. Yuxarıdakı səmimi, obyektiv fikirlərin sonunda ziyalıların, həmkarlarının, tələblərinin, yetirmələrinin, soydaşlarının qəlbində özünə böyük hörmət və nüfuz qazanmış qardaşımız Hacı müəllimin ömrünün bu müdriklik çağında anadan olmasının 70 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona ailə səadəti, uzun və mənalı ömür, möhkəm can sağlığı, həyatda və əməli fəaliyyətində daha böyük zirvələr fəth etməsini arzulayıram!




**Nazim Məmmədov**

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun baş elmi işçisi tarix elmləri doktoru*